UOT 94; UOT 902

ƏMİNƏ İMANZADƏ
Azərbaycan Dillər Universiteti,
Regionşünaslıq kafedrasının laborantı
eminesixaliyeva@gmail.com

CƏNUBİ AMERİKANIN MİSTİK GEOQLİFLƏRİ – NASKA CİZGİLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/103/180-184

Dünya kəşf olunmağı gözləyən sirlərlə doludur. Elmin inkişafı bu sirrlərin bir çoxunun məntiqli izahını əldə etməyə imkan verir. Belə sirli və maraqlı yerlərdən biri də Naska cizgiləridir. Cənubi Amerikanın qədim xalqı Naskalılar təxminən e.ə. 500 – b.e. 500-ci illəri arasında Perunun Naska pampası adlandırılan hissəsində yaşamış və öz mədəniyyətlərini inkişaf etdirmişlər [5]. Bu qədim xalqın geniş səhranı təbaşir lövhəsi kimi istifadə etməsi nəticəsində məşhur Naska cizgiləri ortaya çıxmış və müasir dünyanın ən maraqlı etnoturistik məkanlarından birinə çevrilmişdir. Geniş səhrada təqribən 2000 illik tarixə malik olan şəkillər, müxtəlif düz cizgilər, fiqurlar XX əsrin əvvəllərində aşkar olunmuş və o dövrdən etibarən dəfələrlə tədqiq edilmişdir. Kəşfindən bu yana cizgilərin tarixi, yaradılma forması haqqında bir çox nəzəriyyələr ortaya çıxmışdır. Müasir dövrümüzdə də cizgilər hələ də aşkar olunmaqda və onların yaranma məqsədləri tədqiq olunmaqdadır.

Açar sözlər: Peru, Naska, cizgilər, səhra, geoqlif.

Giriş. Min illərdir üzərində yaşadığımız dünya hələ də həll olunmağı gözləyən sirlərlə doludur. Misir piramidləri, Mayya piramidləri və digər bu kimi hazırlanma prosesi, arxeoloji qalıqları, qədim insanları haqqında müxtəlif nəzəriyyələrin olduğu yerlər öz mövcudluğunu davam etdirməkdədir. Cənubi Amerika insanları, iqlimi, flora və faunası ilə çox rəngarəng regiondur. Dünyanın ən rütubətli yerlərindən biri Amazon meşələri şimalda yerləşdiyi halda, dünyanın ən quraq yerlərindən biri Pataqoniya səhrası cənubda yerləşməkdədir. Yalnız müasir dünyanın yeddi möcüzəsindən üçünün Cənubi Amerikada yerləşdiyi faktı, Cənubi Amerikanın özünəməxsus yerləri, inancları olan qeyri-adi yer olduğunu sübut etməyə imkan verir.

Naska xalqı təqribən 2200 illik keçmişi ilə Cənubi Amerikanın ən qədim xaqlarından biridir. Naska xalqı Perunun cənubunda məskunlaşmış və Parakas mədəniyyətinin təsiri altında öz mədəniyyətlərini formalaşdırmışdır. Naska cizgiləri bir çox sirlər daşıdığına inanılan geoqliflərdir. Naska xalqı Parakas mədəniyyətinin təsiri altında müxtəlif cizgilər formalaşdırdılar. Bu xalq tərəfindən formalaşdırılmış quş, hörümçək, insan və digər formalarda təxminən 70 canlı şəkli, 800 düz xətt, 300 həndəsi fiqurlar tapılmışdır [8]. Çox aydın bir şəkildə onların bu şəkilləri formalaşdırarkən təbiətdən ilham aldıqlarını demək mümkündür. Eyni zamanda naskalılar kompleks xəttləri düz xəttlərdən daha qısa çəkmişdilər. Naskalılar tərəfindən təbaşir lövhəsi olaraq istifadə olunan bu səhrada hətta hündürlüyü Nyu-Yorkun məşhur "Empire State Building" göydəlini qədər olan şəkillər vardır.

Geoqliflər yaradıldığı bölgədəki daşların yerini dəyişdirmək, onları götürmək və ya əlavə daşlar əlavə etmək yolu ilə yaradılırdı. Naska cizgiləri Naska səhrasında yerləşir, bu isə öz növbəsində bu ərazinin iqliminin kiyafət qədər quru və sakit olduğunu deməyə imkan verir. Ərazinin iqlimi bu cizgilərin müasir dövrə qədər mövcudluğunu saxlaya bilməsinin ilkin səbəbidir. Naska cizgiləri bu ərazinin xalqının qırmızı torpağın üzərində çınqılları qazıması və bu çıngılların altındakı ağ hissənin ortaya çıxarılması ilə yaradılmışdır.

Naska cizgilərinin aşkarlanması və tədqiqi. Naska cizgiləri ilk dəfə 1927-ci ildə arxeoloq T.M. Xesspe tərəfindən aşkar olunmuşdur və o uzun müddət bu cizgilərin yaradılma məqsədini tapmağa çalışmışdır. Buradakı əsas ortaya çıxan məqam naskalıların nə üçün bu cizgiləri yaratmaq ehtiyacı hiss etdiyini tapmaq idi: Nə üçün bu geoqliflər çəkilmişdi? Naskalıların bu cizgiləri yaratmaqda məqsədi nə idi? Növbəti illər ərzində arxeoloqlar, etnoloqlar və antropoloqlar tərəfindən bu cizgilərlə bağlı bir çox araşdırmalar aparılmış və nəticədə geoqliflərin yaradılma məqsədinin astronomik, dini və ya mədəni istiqamətli və ya bunların hamısının birlikdə ola biləcəyi qəbul edilmişdir [8].

1946-cı ildə həyatını bu geoqliflərə həsr etmiş alman əsilli riyaziyyatçı Mariya Rieşe tərəfindən onların ilk yaradılma nəzəriyyəsi ortaya atılmış oldu. Mariyanın nəzəriyyəsinə əsasən geometrik fiqurlar günəş, ay və digər ulduzların yerini göstərir və naskalılar tərəfindən əkinçilik, irriqasiya və məhsul yığımı zamanı səmavi təqvim kimi istifadə olunurdu. Mariyanın nəzəriyyəsi bəzi hissələri açıqlaya bilsə də tam hesab olunmurdu, çünki heyvan, bitki, insan və s. kimi motivlərin səbəbini açıqlaya bilmirdi [8].

10 il sonra, 1950-ci illərdə amerikalı arxeoloq V.Strong öz komandası ilə Nazca xəttinin yaradıcılarının yaşadığı güman edilən Kauaçi (Cahuachi) şəhərini araşdırmağa başladı. Kauaçidə aparılan qazıntılar nəticəsində çiy kərpicdən tikilmiş piramida, bir neçə məbəd, geniş meydan, platformalar və pilləkənlər və yollarla birləşən mürəkkəb şəhər planı aşkar edilmişdir [8].

Uzun illər ərzində Naska cizgiləri haqqında bir çox nəzəriyyələr ortaya atıldı. Hətta 60-cı illərdə insanlar bu cizgiləri yad planetlilərlə əlaqələndirməyə başladı. Buranın yad planetlilərin öz maşınlarını saxlaması üçün yer olduğuna, onlara səmadan işarə verildiyinə və s. kimi iddialara inanan insanlar var idi. Nəhayət 1970-ci illərdə Cohan Reynhard və Antoni Aveni tərəfindən bu cizgilərlə bağlı yeni araşdırmalar aparıldı və daha məntiqi nəzəriyyələr ortaya çıxmağa başladı.

Cohan Reynhard öz nəzəriyyəsində yeni bir istiqamətə diqqət yetirməyə başladı. Reynhard öz nəzəriyyəsində bu şəkildə ifadə edirdi: "Böyük ekoloji sistemə baxın, Naskanın ətrafında nə var, Naska xalqı harada yerləşir". Onun iddiasına əsasən ildə cəmi 20 dəq yağış alan bir ərazidə suyun mühim amil olması qaçınılmaz bir fakt idi. "Onların mənşəyi və mənalarına yeni istiqamət" adlı kitabında Reynhard bu cizgilərin su və məhsuldarlığın artırılması üçün ritualların keçirildiyi yerə işarə etdiyini iddia edirdi [7, s.30]. Antoni Averi də Reynhardın iddialarını dəstəkləyərək, bu düz xəttlər və trapezoidlərin su ilə əlaqəli olduğunu, amma əsasən suyu tapmaq üçün yox, rituallarla əlaqəli olduğunu ifadə edirdi.

Naska cizgilərinə daxil olan spiralşəkilli dizaynlar digər qədim Peru mədəniyyətlərində də tapılmışdı və ümumilikdə heyvan simvolizminə And dağlarında geniş rast gəlinmişdir. Bu zaman çəkilən bəzi şəkillərin gündəlik həyatla əlaqəli olaraq mənaları olduğuna inanılırdı. Məsələn, hörümçək yağış simvolu, Cənubi Amerikanın məhşur simvolu kolibri quşunun məhsuldarlıq simvolu olduğunu qəbul edirdilər. Eyni zamanda meymunlar da Amazonda bol sulu yerlərdə tapılırdı. Əslində Reynhard cizgilərlə bağlı düzgün bir fikri ifadə edir və heç bir nəzəriyyənin təklikdə cizgilərin mənasını açа bilməyəcəyini qeyd edirdi. Yalnız etnoqrafiya, arxeologiya və s. bir sıra elm sahələri birlikdə müəyyən bir nəticə əldə edə bilərdilər.

Naskada qazıntılar aparan arxeoloqlardan biri də G.Orefiçidir. 1983-cü ildə Orefici 20-30 min adamın basdırıldığı və hətta bəzilərinin mumiyalandığı böyük bir qəbiristanlıq kəşf etdi. Qazıntılar zamanı arxeoloq Nazca xətlərini xatırladan bəzi keramika məzarları tapıb. Qazıntılar zamanı dəfn paltarı olduğu düşünülən paltar da tapılıb. 2000 illik paltarın üzərində 500 körpə təsviri işlənmişdi, bu körpələrin bəziləri rəqs edir, bəziləri musiqi alətlərində çalır, bəziləri isə onlara baxırdı. G.Orefiçi bu paltarın üzərindəki naxışlara əsaslanaraq, naskalıların bu şəhərdə dini mərasimlər keçirdiklərini ehtimal edir. Bundan əlavə, qazıntılarda tapılan spiral quyuların işlənmiş su şəbəkəsinin bir hissəsi olduğu aydınlaşdırıldı. Peru və Şimali Çili sahilləri dünyanın ən quraq yerlərindən biridir. And dağlarından on ayrı çay hövzəni suvarır. Bununla belə, bu çayların əksəriyyəti ilin ən azı yarısı quruyur. Ona görə də su bu coğrafiya üçün həyati əhəmiyyət kəsb edir. Orefici, suyun həyati əhəmiyyət kəsb etdiyi bu son dərəcə quraq coğrafiyada dini mərasimlərin su və məhsuldarlıq ətrafında formalaşdığını düşünür.

Naska cizgiləri bu ərazidə insanların yaşadığı şəraiti, inanclarını və ehtiyaclarını özündə ehtiva edir. Bu xəttlər bölgənin şəraitinə və o dövrün insanlarının inanclarına uyğun formalaşmışdı. Min illər əvvəldən bu günə qədər su həyatın mənbəyi hesab olunmaqdadır. Təsadüfi deyildi ki, bir çox böyük şəhərlər çayların sahilində salınar, su mənbələrinə yaxın yerləşdirilərdi. Bunun əsas səbəbi suyun həm insan həyatı üçün önəmli olması, həm nəqliyyat əhəmiyyəti daşıması, həm də suyun olduğu yerdə bolluğun olması idi. Keçmişdən bu günə qədər çox dəyişiklik olmamışdır. Müasir dövrümüzdə də liman şəhərləri daha yaxşı inkişaf edə bilməkdə və daha önəmli hesab olunmaqdadır.

Yuxarıda bir çox şəhərlərin su kənarında salınmasını qeyd etməyimizə baxmayaraq, istisnalar da mövcud idi. Buna naskalıların yaşadığı ərazini nümunə göstərmək olar. Naska coğrafi etibari ilə Perunun Kosta adlandırılan sahilyanı ərazisində yerləşir, lakin Perunun sahilyanı ərazisini digərlərindən

fərqli edən bir cəhəti vardır: quraq və sakit iqlimə malik olması. Perunun sahilyanı ərazisində yerləşən Humbolt cərəyanı və ya digər adı ilə Peru cərəyanı soyuq cərəyandır və bu səbəblə də Peru üzərində soyuq və quru hava kütlələrin formalaşmasına səbəb olmuşdur. Bölgəyə il ərzində düşən illik orta yağıntı miqdarı 4 millimetrdir. Bu səbəblə də bu ərazidə su həyati önəmə malik idi. Xüsusi ilə də Naska xalqı əkinçiliklə məşğul olurdu və məhsul əldə edə bilmək üçün suya ehtiyacları var idi.

Naska cizgiləri ilə bağlı ən son araşdırmalar 2011, 2016, 2018 və 2020-ci illərdə aparılmışdır. Qeyd etmək lazımdır ki, bu cizgilərə çatmaq 1980-ci illərdən etibarən məhdudlandırılmışdır və tədqiqat aparmaq elə də asan deyildir. Ərazi dövlət tərəfindən qorunur və hər-hansı dağıdıcı təsir səbəbindən tədqiqatların aparılmasına icazə verilmir. 2011 və 2016-ci ildəki tədqiqatlar Yaponiyalı tədqiqatçılar tərəfindən həyata keçirilmişdi və onlar 30 metr uzunluğunda mistik bir canlını əks etdirən geoqlifi aşkar etmişdilər. 2018-ci ildə Perulu tədqiqatçılar tərəfindən 50-dən çox yeni geoqlif aşkar olundu. 2020-ci ildə aparılan araşdırmalar isə pişik geoqlifini ortaya çıxardı [3, s.2].

Naska cizgiləri 1994-cü ildə YUNESKO tərəfindən Ümumdünya İrs siyahısına əlavə edilmişdir [5]. Bu siyahı əsasən dünya ətrafında dünya üçün önəmli olan, beynəlxalq cəmiyyət tərəfindən qorunan mədəniyyət nümunələrini, şəhərləri, təbiət abidələrini əhatə edir. Naska cizgiləri həm önəmli ekoturizm nümunəsi, həm də qədim xalqların dini inanclarını, eyni zamanda irriqasiya sistemi yaratmadakı bacarıqlarını göstərən önəmli mədəniyyət nümunəsidir.

Naska cizgilərinə təhdidlər. Naska cizgilərinin müasir dövrdə qorunmasına və YUNESKO-nun Ümumdünya İrs siyahısına alınmasına baxmayaraq, onların varlıqlarına bir sıra təhlükələr hələ də var. Cizgilər ilk kəşfedildikləri vaxtdan qısa bir müddət sonra böyük şöhrət qazanmış və buraya bir çox ziyarətçilər axın etməyə başlamışdı. Eyni zamanda bu cizgiləri uçurtmaq, oğurluq məqsədi ilə gələnlərdə olurdu. Hətta bu səbəblə tədqiqatçı Mariya Rieşe cizgilərin yaxınlığında ev tutmuş və orada yaşamağa başlamışdır. Daha sonra bu cizgiləri ziyarət etmək məhdudlandırılmış, hətta bu səbəblə burada tədqiqat aparmaq işi belə çətinləşmişdir.

Müasir dövrümüzdə isə meşələrin qırılması və erroziya prosesinin sürətlənməsi cizgiləri təhdid edən məsələlərdəndir [3]. Yuxarıda qeyd olunduğu kimi, Naska cizgilərinin 2000 ildən uzun müddət həyatda qalmasının səbəbi iqlimin əlverişli olması, yağışın az yağması, küləyin olmaması idi, amma indi bütün dünyada hər bir sahədə dəyişikliklər yaşandığı kimi, iqlimdə dəyişməkdədir. Qlobal iqlim dəyişikliyi Naska cizgilərini də təhdid edən hava şəraitinin yaranmasına gətirib çıxarır. Yağışların çoxalması, güclü küləyin olması cizgilərin məhvinə gətirib çıxara bilər. Bu illər ərzində cizgilərə müxtəlif səbəblərdən ziyanlar dəymişdir. Bunlar arasında qeyri-qanuni şəkildə əraziyə daxil olan maşınlar, aktivistlərin cizgilər olan yerdə aksiya keçirməsi və s. kimi səbəblər var idi. Naska cizgiləri dünya tarixinin önəmli səhnələrindən biri, "Yeni dünya"nın ispan səyyahı Xristofor Kolumb tərəfindən kəşfindən əvvəl burada yaşayan xalqların mədəniyyəti, dünyagörüşü, dini inancları haqqında bizə məlumat verir. Bu cizgilərin qorunması yalnız Peru və ya Cənubi Amerika üçün deyil, bütün dünya tarixi üçün önəmlidir.

Nəticə. Naska xəttləri şübhəsiz ki, YUNESKO-nun Ümumdünya İrs siyahısına əlavə edilmiş mədəni irs abidəsidir, amma bu onun mühafizəsi və təhlükəsizliyi üçün kifayət deyildir. Ərazinin vaxtından əvvəl, tədqiqatlar aparılmamış həddindən artıq məhşurlaşması, buraya çoxlu insanı cəlb etməsi həm elmi tədqiqatlara təsir edən bir sıra nəzəriyyələrin ortaya çıxmasına, həm də bu cizgilərin zərər görməsinə səbəb olmuşdur. Bu cizgilər haqqında müxtəlif tədqiqatlar aparılmasına baxmayaraq, yeni və daha əsaslı tədqiqatlara, ərazinin daha dəqiq xəritəsinin formalaşdırılmasına ehtiyac vardır.

Cizgilərin bir çox səbəblərlə yaradıldığı iddiaları olsa da əsasən yağış yağması üçün rituallar üçün istifadə olunduğu düşünülür. Su bu ərazidə yaşayan insanlar üçün daim önəmli olmuşdur, çünki həyatta qalmaq üçün su önəmli idi. Cizgilərində bu səbəblə mövcud olan su resurslarını quraq ərazilərə yönləndirmək üçün istifadə olunduğu düşünülür. Naska xalqlarının dini inancları, cizgilərin yaradılma məqsədinin tam aydınlaşdırılması üçün yeni və daha ətraflı araşdırmaların aparılması vacibdir, amma bütün bu faktlarla birlikdə bu cizgilərin insanlıq tarixinin önəmli bir səhifəsi olduğu şübhəsiz faktdır.

ƏDƏBİYYAT

1. Aveni A. Between the lines: Mysteri of the Giant Ground Drawings of ancient Nasca, Peru. University of Texas press. June 15, 2000. 320 p.

2. Browman D. I., Central Andean views of nature and the Environment, in: Selin, H. (ed.) Nature Across Cultures: Views of Nature and the Environment in Non-Western Cultures, SACH, volume 4, Springer Science & Business Media, 2013. pp.289- 310.
3. Dr. Austin M., Singh J., Schular M., Bilal H., Jean-Marie N., George M.E., Haq N., Habtemikael M., Tang M., Raza N., The Nazca lines. Golden Meteorite Press. 2021. 89 p.
4. Lasaponara R., Masini N., Following the Ancient Nasca Puquios from Space, in: Satellite Remote Sensing. A New Tool for Archaeology, RDIP, volume 16, Springer, 2011, pp.269-289.
5. Lines and geolyps of Nasca and Palpa // Lines and Geoglyphs of Nasca and Palpa - UNESCO World Heritage Centre. – URL: https://whc.unesco.org/en/list/700/ [22.11.2023].
6. Prof. Dr. Seglins V., Dr Kukala A., Lazdina M. Nazca lines as an indicator of ancient irrigation system elements. University of Latvia / 17th International Multidisciplinary Scientific GeoConference, SGEM, Sofia, Tom 17, November 2017, p.299-307. - URL: https://www.researchgate.net/publication/323178800_NAZCA_LINES_AS_AN_INDICATOR_OF_ANCIENT_IRRIGATION_SYSTEM_ELEMENTS [22.11.2023].
7. Reinhard J. The Nazca lines: A new perspective on their origin and meaning. Editorial Los Pinos, 2nd edition. January 1, 1986. 79 p.
8. The history of Peru's Nazca lines. – URL: https://www.grunge.com/1156682/the-history-of-perus-nazca-lines/ [22.11.2023].

АМИНА ИМАНЗАДЕ
лаборант кафедры Регионоведения
Азербайджанского университета языков

МИСТИЧЕСКИЕ ГЕОГЛИФЫ ЮЖНОЙ АМЕРИКИ - ЛИНИИ НАСКА

Мир полон загадок, которые ждут своего разрешения. Развитие науки позволяет получить логическое объяснение многим из этих загадок. Одним из таких загадочных и интересных мест являются линии Наска. Народ Наска, древний народ Южной Америки, жил около нашей эры. 500 – до н.э. Между 200 и 200 годами они жили в части Перу, называемой Пампасами Наска, и развивали свою собственную культуру. В результате того, что древние люди использовали обширную пустыню в качестве меловой доски, возникли знаменитые линии Наска, которые стали одним из самых интересных этнотуристических направлений современного мира. Картины, различные прямые линии, фигуры с историей около 2000 лет на просторах пустыни были обнаружены в начале 20 века и с тех пор неоднократно изучались. С момента его открытия было выдвинуто множество теорий об истории линий и форме создания. Даже в наше время линии все еще открываются и изучаются цели их создания.

Ключевые слова: Перу, Наска, линии, пустыня, геоглиф.

AMİNA IMANZADEH
Laborant of Department of Regional Studies,
Azerbaijan University of Languages

MYSTIC GEOGLYPS OF SOUTH AMERICA – NAZCA LINES

The world is full of mysteries waiting to be discovered. The development of science allows us to get a logical explanation of many of these mysteries. One such mysterious and interesting place is the Nazca lines. The Nazca people, an ancient people of South America, lived around B.C. 500 – B.C. Between the years 200 and 200, they lived in the part of Peru called the Nazca Pampas and developed their own culture. As a result of this ancient people's use of the vast desert as a chalk board, the famous Nazca lines emerged and became one of the most interesting ethno-touristic destinations of the modern world. Pictures, various straight lines, figures with a history of approximately 2000 years in the vast desert were discovered at the beginning of the 20th century and have been studied many times since

then. Since its discovery, many theories have been put forward about the history of lines and the form of creation. Even in our modern times, lines are still being discovered and the purpose of their creation is being studied.

Keywords: Peru, Nazca, lines, dessert, geoglyps.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 22 noyabr 2023-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 dekabr 2023-cü il.
Rəyçilər: t.ü.f.d. Aqil Şahmuradov, t.e.d. Qabil Əliyev.